Köhnəlmə, əmlak, avadanlıq və qeyri-maddi aktivlərin qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı dərəcələrdə tətbiq edilir:

| | |
|---|---|
| Mebel və ofis avadanlıqları | 20-33% |
| Kompüter avadanlıqları | 33% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər aktivlər | 20% |

Əmlak və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq heç bir iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırlılır. Əmlak və avadanlıq obyektlərinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılımasından irəli gələn hər hansı gəlir və ya zərərlər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesablarında tanınır.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlərə proqram təminatına və onların tələb üzrə formalaşdırılmasına ayrılan investisiyalar daxildir.

pdfelement

Müəyyən istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti ərzində düz xətt metodundan istifadə etməklə uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti və köhnəlmə metodu gələcək dövrlər üzrə uçota alınan təxminlərdəki hər hansı dəyişikliklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir. Ayrılıqda alınmış və qeyri-müəyyən istismar müddətləri olan qeyri-maddi aktivlər yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır.

***Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması.*** Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər haqqında hesabatda tanınır.

***Qudvildən başqa digər maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi.*** Hər bir hesabat dövrünün sonunda Təşkilat öz maddi və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa bu aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Təşkilat aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidlərinin qalıq dəyərini təhlil edir.

Hal-hazırda istifadə edilməyən və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə bu aktivlərin dəyərsizləşməsi üzrə hər hansı bir göstərici olduqda və ya ən az ildə bir dəfə olmaqla dəyərsizləşmə üçün təhlil edilir.

Remove Watermark Now



**Girovlar**

Təşkilat məqsədə müvafiq hesab edildiyi hallarda müştərilərin öhdəlikləri müqabilində girov alır. Girov adətən müştəri əmlakının həbs olunmasını nəzərdə tutur və Təşkilata müştərinin həm cari, həm də gələcək öhdəlikləri ilə əlaqədar əmlaka qarşı iddianın irəli sürülməsi üçün əsas yaradır.

**Vergi qanunvericiliyi**

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Təşkilatın cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

pdfelement

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvə ilə vergi dərəcələrinə (və vergi qanunlarına) əsaslanmaqla aktivin satıldığı və ya öhdəliyin yerinə yetirildiyi dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcəsi ilə ölçülür.

**Faiz gəliri və xərcinin tanınması**

Faiz gəliri və xərcləri amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD ilə əlavə etmə əsasında, effektiv faiz metodundan istifadə etməklə, borc alətləri üzrə uçota alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Təşkilat tərəfindən alınmış komissiya haqları, Təşkilatın xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Təşkilat kredit verilməsi üzrə öhdəlikləri MZVƏD ilə ölçülən maliyyə öhdəlikləri kimi təsnif etmir.

Remove Watermark Now



Kredit dəyərsizləşməsi ilə əldə edilmiş və ya satın alınmış maliyyə aktivləri üçün effektiv faiz dərəcəsi ehtimal edilən pul vəsaitlərinin hərəkəti (ilkin ehtimal olunan kredit zərərləri də daxil olmaqla) ilkin tanınma zamanı ədalətli dəyərə (adətən alış qiyməti ilə) diskont edilmiş dərəcəsidir. Nəticədə, effektiv faiz dərəcəsi kredit uçotu ilə tənzimlənir.

Faiz gəlirləri, maliyyə aktivlərinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır:

i) kredit dəyərsizləşməsinə uğramış (3-cü mərhələ) maliyyə aktivləri üzrə faiz dərəcəsi onların effektiv faiz dərəcəsini amortizasiya dəyərinə (EOKZ çıxılmaqla) tətbiq etməklə hesablanır; və
ii) əldə edildikdə və ya satın aldıqda kredit zərərinə məruz qalmış maliyyə aktivləri, amortizasiya dəyərinə tətbiq edilən kreditə müvafiq olaraq düzəliş edilmiş effektiv faiz dərəcəsi tətbiq olunmaqla.

**Haqq və komissiya gəlirinin tanınması**

Kreditlərin verilməsinə görə komissiyalar birbaşa əlaqədar xərclər ilə birlikdə təxirə salınır və kredit üzrə effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kreditin ayrılması öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilən hallarda, kreditin ayrılması öhdəliyi üzrə komissiyalar birbaşa əlaqədar xərclər ilə birlikdə təxirə salınır və nəticədə verilən kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kreditin ayrılması öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilmədiyi hallarda, kreditin ayrılması öhdəliyi üzrə komissiyalar kredit öhdəliyi müddətinin qalan dövrü üzrə mənfəət və ya zərər uçotunda tanınır. Kreditin ayrılması öhdəliyinin müddəti kredit verilmədən başa çatarsa, belə öhdəliyə görə komissiya müddət başa çatdığı anda mənfəət və ya zərərdə tanınır. Kredit xidməti haqları xidmətlərin yerinə yetirildiyi təqdirdə gəlirlər kimi uçotda tanınır. Bütün digər komissiyalar yalnız xidmətlər göstərildikdə tanınır.

pdfelement

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Təşkilat işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu xərc müvafiq əmək haqqının alındığı dövrə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər işçilər tərəfindən seçilmiş təqaüd fondu tərəfindən həyata keçirilir. Təşkilat Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Təşkilatda hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Əməliyyat vergiləri**

Azərbaycan Respublikasında Təşkilatın fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər və məcmu gəlirlər haqqında hesabata daxil edilir.

**Ehtiyatlar**

Ehtiyatlar Təşkilatın keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Təşkilatdan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Remove Watermark Now

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat ayırmaları hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

**Funksional valyuta**

Təşkilatın maliyyə hesabatlarına daxil edilən maddələr Təşkilatın fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyutanı ("funksional valyuta") istifadə etməklə ölçülür. Təşkilatın funksional valyutası Azərbaycan manatıdır (AZN). Təqdimat valyutası Azərbaycan manatı (AZN) olduğundan, maliyyə hesabatları Azərbaycan manatında təqdim edilmişdir.

**Xarici valyuta məzənnələri**

Maliyyə hesabatlarının hazırlanması zamanı Təşkilat tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7001 |
| Avro/AZN | 1.9468 | 2.0307 |

pdfelement

## 3. ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ DAVAMİYYƏT PRİNSİPİNƏ UYĞUN OLARAQ FƏALİYYƏT ÜZRƏ FƏRZİYYƏLƏRLƏ BAĞLI ƏSAS QEYRİ-MÜƏYYƏNLİKLƏRİN MƏNBƏLƏRİ

Təşkilatın maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin edilməsini tələb edir. Rəhbərlik mütəmadi olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Aşağıda göstərilən təxminlər və mülahizələr Təşkilatın maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**EOKZ ehtiyatının ölçülməsi (1 yanvar 2018-ci il tarixindən)**

EOKZ-un ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 21 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), Defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ"), və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makro-iqtisadi ssenarilər üzrə modellər. Təşkilat müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 21 saylı Qeyddə açıqlanır.

Remove Watermark Now

**Kredit Riski üzrə Əhəmiyyətli Artım (“KRƏA”)**

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Təşkilat, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmaq üçün deyil, kredit riskinin nisbi artımını təyin etmək məqsədilə nəzərdən keçirilir. Təşkilat müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcək məlumatları nəzərə alır. Təşkilatın rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəklə bağlı məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 21 saylı Qeydə nəzər salın.

**Maliyyə aktivlərinin dəyişdirilməsi**

Maliyyə aktivləri üzrə müqavilə şərtlərində dəyişikliklər baş verdikdə (məsələn şərtlər yenidən razılaşdırıldıqda), Təşkilatın rəhbərliyi ilk olaraq dəyişikliyin əhəmiyyətliliyinə, ilkin tanınmış maliyyə aktivinə xitam verilməsi və ədalətli dəyərdə yeni maliyyə aktivinin tanınması zərurətinə nəzər yetirir. Bu dəyərləndirmə əsasən müvafiq mühasibat siyasətində təsvir edilmiş keyfiyyət parametrlərinə əsaslanır və kifayət qədər mülahizələrdən istifadə olunmasını tələb edir. Xüsusən də Təşkilatın rəhbərliyi kredit dəyərsizləşməsinə məruz qalmış və şərtləri yenidən razılaşdırılmış maliyyə aktivinin tanınmasının dayandırılması və ikin tanınma zamanı kredit itkisinə məruz qalmış yeni alətin tanınmasına zərurətin olması məsələsində mülahizələrdən istifadə edir. Tanınmaya xitam verilməsi üzrə dəyərləndirmə zamanı müqavilə şərtlərinə edilən dəyişikliklərin gözlənilən (məhz müqavilə üzrə deyil) nağd pul vəsaitlərinin hərəkətinə edilən təsir üzrə risk və mükafatlar nəzərə alınır.

pdfelement

Təşkilatın rəhbərliyi hesab edir ki, belə kreditlərin şərtlərinin yenidən razılaşdırılması nəticəsində risk və mükafatlar dəyişməmiş, buna görə də bütün belə kreditlər üzrə kredit alətinin tanınmasına xitam verilməmiş və kredit dəyərsizləşməsi üzrə aid olduğu mərhələdən digərinə köçürülməmişdir.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Təşkilat Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Təşkilatın fəaliyyəti üçün münasib olan və 31 dekabr 2018-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. MHBS 9 “Maliyyə Alətləri”-nin təsiri istisna olmaqla, bu yeni standart və şərhlərin qəbul edilməsi Təşkilatın mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir.

**MHBS 9 “Maliyyə Alətləri” standartı** – 2014-cü ilin iyul ayında MBUSŞ, maliyyə alətləri layihəsinin bütün mərhələlərini əks etdirən və Maliyyə Alətləri: Tanınma və Ölçmə standartına dair 39 saylı MUBS-ni əvəz edən 9 saylı MHBS Maliyyə Alətləri standartının son versiyasını və 9 saylı MHBS-in bütün əvvəlki versiyalarını dərc etmişdir. Standart standartlaşdırma və ölçmə, dəyərsizləşmə və hecinq uçotu üçün yeni tələbləri təqdim edir.

Remove Watermark Now



*Təsnifat və Ölçülmə.* Təsnifat və ölçülmə aspektindən, yeni dərc edilmiş bu standart, kapital alətləri və törəmə maliyyə alətləri istisna olmaqla, aktivlərini idarə edilməsi üçün müəssisənin biznes modelinin və alətlərin müqaviləli pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinin birləşməsi əsasında bütün maliyyə aktivlərinin qiymətləndirilməsini tələb edəcəkdir. MUBS 39 standartının qiymətləndirmə kateqoriyaları növbəti kateqoriyalarla əvəz ediləcək: mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD), digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGVƏD) və amortizasiya edilmiş dəyərlər kateqoriyası. 9 saylı MHBS, müəssisələrə amortizasiya edilmiş xərclərə və ya DMGVƏD alətlərinə MZVƏD kimi uyğunlaşdırmaq üçün imkan verəcək ki, bu da ölçmə və ya tanınma uyğunsuzluğunu aradan qaldıracaq və ya əhəmiyyətli dərəcədə azaldacaq. Ticarət üçün tutulmayan kapital alətləri, DMGVƏD kimi geri qaytarılmayacaq şəkildə təyin edilə bilər, bu da gəlir hesabatında mənfəət və ya zərərin sonradan yenidən təsnifləşdirilməməsi ilə mümkündür. Maliyyə öhdəliklərinin mühasibat uçotu 39 saylı MUBS-un tələblərinə əsasən eyni olacaq. Təşkilatın maliyyə aktivlərinin əksəriyyəti, daha sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri kimi təsnif edilmişdir. Təşkilatın maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Təşkilat öz maliyyə öhdəliklərini mənfəət və zərər hesabına ədalətli dəyərlə ölçülən maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Təşkilat ehtimal olunan kredit zərərləri modelini amortizasiya olunmuş dəyərdə ölçülən və ya məcmu gəlir vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə aktivlərinə tətbiq edir.

Maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artdığı təqdirdə, maliyyə aktivi üçün ehtimal olunan kredit zərərləri üzrə ehtiyat, ömürlük ehtimal olunan kredit zərərlərinə bərabər məbləğdə ölçülür.

Əgər hesabat tarixinə maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmayıbsa, həmin maliyyə aktivi üçün ehtimal olunan kredit zərərləri üzrə ehtiyat (sadələşdirilmiş yanaşmanın tətbiq olunduğu debitor borcları istisna olmaqla) 12-aylıq ehtimal olunan kredit zərəri dəyərində ölçülür. Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri, onların əhəmiyyətli maliyyə komponentinə malik olub-olmamasından asılı olmayaraq, ömürlük dəyərdə ölçülür.

9 saylı MHBS, 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. Təşkilat müqayisəli məlumatları yenidən təqdimatını deyil, keçid tarixinə, yəni 1 yanvar 2018-ci il tarixinə standartın tətbiqinin bölüşdürülməmiş mənfəətə olan təsirini təqdim etmək hüququndan istifadə etmişdir. 1 yanvar 2018-ci il tarixinə keçidin effekti əhəmiyyətli deyil.

Aşağıdakı cədvəl maliyyə alətlərinin qalıq dəyərlərini 39 saylı MBUS-a uyğun olaraq əvvəlki ölçü kateqoriyalarından 1 yanvar 2018-ci il tarixi üzrə 9 saylı MHBS-yə keçiddən sonrakı yeni ölçü kateqoriyaları ilə üzləşdirir:

pdfelement

Remove Watermark Now



| | ***Ölçü kateqoriyası*** | | **31 dekabr 2017-ci il tarixinə 39 saylı BMUS üzrə qalıq dəyəri** | **Təsiri** | | **1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS üzrə qalıq dəyəri** |
|---|---|---|---|---|---|---|
| | BMUS 39 | MHBS 9 | | Yenidən ölçülmə | | |
| **Maliyyə aktivləri** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | K&AV | AD | 7,045 | - | - | 7,045 |
| Müştərilərə verilmiş kreditlər | K&AV | AD | 13,021 | - | - | 13,021 |
| Digər maliyyə aktivləri | K&AV | AD | 425 | - | - | 425 |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Borc alınmış vəsaitlər | Digər öhdəliklər | AD | 10,154 | - | - | 10,154 |
| Digər maliyyə öhdəlikləri | Digər öhdəliklər | AD | 1,791 | - | - | 1,791 |

MUBS və MUSŞ mövcud MHBS və ABŞ ÜQMP gəlir tələblərini əvəz edəcək birgə gəlirin tanınması standartı **MHBS 15 “Müştərilərlə bağlanmış Müqavilələr üzrə Gəlirlər”** hazırlamışlar. MHBS 15 standartı, MHBS üzrə hazırlanmış maliyyə hesabatlarında gəlirin necə və nə vaxt tanımasını, eyni zamanda belə hesabatların istifadəçiləri üçün daha dolğun və uyğun açıqlamalar təqdim etməyi tələb edir. Standart yeganə olaraq, müştərilərlə bağlanmış müqavilələrə tətbiq ediləcək beş-pilləli prinsiplər modelini təqdim edir. MHBS 15 standartı 2014-cü ilin may ayında hazırlanmışdır və fəaliyyətin başlanması tarixi 1 yanvar 2018-ci il tarixində başlamış illik dövr üçün tətbiq olunacaqdır. Təşkilat tərəfindən aparılan təhlil nəticəsində standartın maliyyə hesabatlarına heç bir təsiri olmadığı qənaətinə gəlinmişdir.

pdfelement

**MUBS 40 “İnvestisiya Mülkiyyətinin Transferi”** aydınlaşdırır ki, müəssisə yalnız əmlakın istifadəsində baş vermiş dəyişikliyə dair sübut olduğu halda əmlakı investisiya mülkiyyətinə/mülkiyyətindən təsnifləşdirə bilər. Düzəlişlər, həmçinin 40 saylı MUBS-da göstərilən halların yeganə mümkün hallar olmadığını və istifadə üzrə dəyişikliyin inşası davam edən obyektlər üçün də mümkünlüyünü müəyyənləşdirir (yəni istifadə üzrə dəyişiklik yalnız inşası yekunlaşmış obyektlərlə məhdudlaşmır).

**BMHŞK 22 “Xarici Valyuta ilə Həyata keçirilən Əməliyyatlar və Əvvəlcədən Ödəmələr”** standartı aşağıdakı hallarda xarici valyuta əməliyyatlarına və ya onun hissələrinə xitab edir:

- Xarici valyuta ilə göstərilən və ya qiymətləndirilən ödənişlər mövcuddursa;
- Müəssisə vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəliklərini həmin ödənişlər ilə bağlı müvafiq aktiv, xərc və gəlirin tanınmasından əvvəl tanıyırsa; və
- Vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəlikləri qeyri-monetar hesab olunarsa.

Şərhlər Komitəsi bu qənaətə gəlmişdir ki, valyuta məzənnəsini müəyyənləşdirmək məqsədilə həyata keçirilən əməliyyatın tarixi, vaxtından əvvəl ödənilən qeyri-monetar aktivlər və ya təxirə salınmış vergi öhdəliklərinin ilkin tanınma tarixidir. Vaxtından əvvəl ödənilən çoxsaylı ödənişlər və ya daxilolmalar mövcud olarsa, əməliyyatın tarixi hər bir ödəniş və ya daxilolma üzrə təyin edilir.

Remove Watermark Now



**MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına düzəliş** – MUBSŞ, MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına yekun düzəlişlərini açıqlamışdır. Həmin düzəlişlər pay alətləri əsasında ödəmə əməliyyatlarının təsnif edilməsinə və ölçülməsinə aydınlıq gətirir. Pay alətləri əsasında ödəmə əməliyyatlarının təsnif edilməsi və ölçülməsinə dəqiqləşmələr və düzəlişlər aşağıdakılardır:

***Fəaliyyətin keyfiyyət şərtlərinin daxil olduğu dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələrinin uçotu***

Bu düzəlişlər olunana qədər, MHBS 2 standartında dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələri üzrə öhdəliklərin ədalətli dəyərinə hüququn verilməsi şərtlərinin hansı şəkildə təsir göstərməsi ilə bağlı hər hansı təlimat daxil edilməmişdir. MUBSŞ, kapital alətləri vasitəsilə həyata keçirilən pay alətləri əsasında ödəmələr üzrə istifadə olunmuş eyni yanaşmanı davam etdirən dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmələr üzrə uçot tələblərini təqdim edən təlimat əlavə etmişdir.

***Xalis ödəmə xüsusiyyətləri ilə pay alətləri əsasında ödəmə sövdələşmələrinin təsnifatı***

MUBSŞ, MHBS 2 satndartına istisna tətbiq etmişdir. İstisna nəticəsində, müəssisə ödənişlərini pay alətləri əsasında ödəmə sövdələşmələri ilə həyata keçirdikdə pay alətləri əsasında ödəmələr təmin olunmuş tamlıqda kapital alətləri əsasında ödəmələr olaraq təsnif edilir.

***Dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçərkən pay alətləri əsasında ödəməyə düzəlişlərin uçota alınması***

Bu düzəlişlər olunana qədər, MHBS 2 şərtlər və şərait ilə bağlı düzəlişlər səbəbilə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçdiyi zamanda baş verən halları nəzərdə tutmamışdır. MUBSŞ aşağıdakı izahatları təqdim edir:

- Belə dəyişikliklərdə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə ilə tanınmış əsl öhdəliyin tanınması dayandırılır və kapital alətləri vasitəsilə həyata keçirilən ödəmələr düzəliş tarixinə qədər yerinə yetirilmiş xidmətlər dərəcəsində ədələtli dəyərə düzəliş tarixində tanınır;
- Düzəliş tarixinə öhdəliyin qalıq məbləği və eyni tarixdə kapitalda tanınmış məbləğ arasında fərq yaranarsa, həmin fərq dərhal mənfəət və zərər hesablarında tanınacaq.

Təşkilat, aşağıda 1 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişləri özündə ehtiva edən **2014-2016-cı illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişləri** qəbul etmişdir:

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 1 "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə Tətbiq edilməsi" | İlk dəfə tətbiq edənlər üçün qısamüddətli istisnaların silinməsi: Düzəlişlər MHBS 7, MUBS 19, MHBS 12 və MUBS 27 ilə əlaəqdər olan MHBS 1-də qısamüddətli istisnaları aradan qaldırır. |
| MUBS 28 "Asılı Təsərrüfat Subyektlərinə İnvestisiya Qoyuluşları" | Asılı və ya birgə müəssisələrin ədalətli dəyərdə ölçülməsi: Düzəlişlər aydınlıq gətirir ki, vençur təşkilat və ya digər ixtisaslaşmış qurum olan müəssisə tərəfindən saxlanılan asılı və birgə müəssisələrdə investisiya qoyuluşlarının mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə ölçmək üçün seçkilər ilkin tanınma zamanı investisiyalar əsasında asılı və ya birgə müəssisələrdə hər bir investisya üçün mövcuddur. |

Remove Watermark Now

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Təşkilat tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş lakin qüvvəyə minməmişdir.

BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik", 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

Bu şərh, 1 yanvar 2019-cu il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

**2015-2018-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 3 "Biznes Kombinasiyaları" və MHBS 11 "Birgə Razılaşmalar" | MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin biznesə bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır. |
| BMUS 12 "Mənfəət Vergisi" | Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır. |
| BMUS 23 "Borc üzrə Xərclər" | Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir. |

Bütün bu düzəlişlər, 2019-cu ilin 1 yanvar tarixində və ya ondan sonrakı tarixlərdə başlayan dövrlər üzrə tətbiq edilməlidir.

Remove Watermark Now



**"İşçilərin Mükafatlandırılması Paketləri üzrə Düzəliş, Məhdudlaşdırılma və ya Hesablamalar" üzrə 19 saylı MUBS-a edilən Düzəlişlər** – Dəyişikliklər, keçmiş xidmət dəyəri (ya da hesablama üzrə mənfəət və ya zərəri) müəyyən edilmiş təqaüd öhdəliklərinin (aktivin) yenilənmiş ehtimallardan istifadə edərək ölçülməsi və təklif olunan faydaları və paket aktivlərini müvafiq dəyişiklikdən əvvəl və sonra müqayisə etməklə (məhdudlaşdırılma və ya hesablanmalar), lakin aktivin maksimal həddinin təsirini nəzərə almamaqla ölçülür (müəyyən edilmiş təqaüd paketi müsbət saldo olduqda yarana bilər). BMUS 19-a əsasən, paketin düzəlişindən (məhdudlaşdırılma və ya hesablanmalar) yarana biləcək aktivin maksimal həddinin təsirinin dəyişməsi ikinci mərhələdə müəyyənləşdirilir və digər məcmu gəlirdə normal qaydada tanınır.

Mövcud xidmət xərcinin ölçülməsinə aid olan paraqraflar və müəyyən edilmiş xalis təqaüd öhdəlikləri (aktiv) üzrə xalis faizlərə də düzəliş edilmişdir. İndi müəssisədən plana dəyişikliklər edildikdən sonra hesabat dövrünün qalan hissəsi üçün cari xidmət haqqını və dəqiq faizini müəyyən etmək üçün bu yenidən qiymətləndirmədən yenilənmiş ehtimallardan istifadə etmək tələb olunacaq. Xalis faiz dərəcəsi halında düzəlişlər aydınlaşdırır ki, planın dəyişməsindən sonrakı müddət üzrə xalis faiz dərəcəsi BMUS 19.99-da yenidən qiymətləndirilmiş xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri (aktiv) ilə yenidən qiymətləndirilmədə istifadə edilən diskont dərəcəsinin hasili şəklində hesablanır (həmçinin ianələrin təsiri və xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri nəzərə alınır (aktiv)).

Düzəlişlər prospektiv şəkildə tətbiq olunur. Onlar yalnız illik dövrün başlanğıcında və ya ondan sonrakı dövrdə BMUS 19-a ilk tətbiq edilmiş paket düzəlişləri, məhdudiyyətləri və hesablamalarına tətbiq olunur.

19 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2019-cu il tarixinə və ya ondan sonra başlayan illik dövrlər üçün tətbiq edilməlidir, lakin müəssisənin qərarı ilə, daha erkən tətbiq oluna bilər.

pdfelement

**MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər** – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər** – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-yə dair dəyişiklikləri dərc etmişdir.

*Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri* – mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-nin mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

Bu düzəlişlər 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

Rəhbərlik bu standartların nəticələrini, onların birləşdirilmiş maliyyə hesabatlarına təsirini və Təşkilat tərəfindən onların tətbiq olunma vaxtını nəzərə alır.

Remove Watermark Now

**MHBS 16 "İcarələr"**, MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan vahid mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

MHBS 16 "İcarələr", 13 yanvar 2016-cı il tarixində dərc olunmuşdur və 1 yanvar 2019-cu il tarixində və həmin tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

Təşkilat MHBS 16:C5 (b) (ilkin tətbiq tarixində tanınan Standartın əvvəlcədən tətbiqinin məcmu təsiri ilə, retrospektiv şəkildə) uyğun olaraq tətbiq etməyi seçmişdir. Nəticə olaraq, Təşkilat müqayisəli məlumatı dəyişməyəcək, Standartın əvvəlcədən tətbiqinin məcmu təsirini ilkin tətbiq olunma tarixində bölüşdürülməmiş mənfəətin ilin əvvəlinə olan dəyərinə düzəliş kimi tanıyacaq.

İcarəçi mühasibatlığından fərqli olaraq, MHBS 16 BMUS 17-də olan icarəyə verən ilə bağlı mühasibatlıq tələblərini özündə əks etdirir. Yeni standartın tətbiqi İcarəçi olaraq Təşkilata təsir göstərə bilər. Əvvəllər BMUS 17-yə uyğun olaraq əməliyyat icarəsi kimi balansda tanınmayan icarəyə MHBS 16 dəyişiklik edə bilər. MHBS 16-nın ilkin tətbiqində Təşkilat bütün icarələr üçün (aşağıda qeyd olunan istisna olmaqla):

a) birləşdirilmiş maliyyə hesabatlarında aktivlərdən istifadə hüququ və gələcək icarə ödənişlərinin indiki dəyəri kimi hesablanan icarə öhdəliklərini tanıyır;
b) aktivlərdən istifadə hüququnun amortizasiyasını və icarə öhdəliklərinin faiz xərcini birləşdirilmiş mənfəət və zərər hesabatında tanıyır;
c) pul vəsaitlərinin hərəkəti haqqında hesabatda cəmi ödənilən məbləği əsas hissə ( maliyyə fəaliyyətində göstərilir) və faiz xərci ( əməliyyat fəaliyyətində göstərilir) kimi ayrılıqda göstərir.

pdfelement

Güzəştli icarə ödənişləri (məsələn, icarə haqqı olmayan müddət) istifadə hüququ verən aktivlərin və icarə öhdəliklərinin ölçülməsinin bir hissəsi kimi qəbul edilməlidir. 17 saylı BMUS-da isə müvafiq olaraq, güzəştli icarə öhdəliklərinin ayrıca tanınması və düz xətt üsulu ilə icarə xərclərinin azalması vasitəsilə amortizasiyası tələb olunurdu.

16 saylı MHBS-yə əsasən tanınmış aktivlərdən istifadə hüququ, "Aktivlərin Dəyərsizləşməsi" adlı 36 saylı BMUS-a uyğun olaraq dəyərsizləşmə üzrə təhlil edilməlidir. Bu əhəmiyyətli icarə müqavilələri üzrə ehtiyat tanınması üçün əvvəlki tələbi əvəz edəcək.

Qısamüddətli icarələr (12 ay və daha az icarə müddəti) və aşağı dəyərli aktivlərin (fərdi komputerlər və ofis mebeli) icarəsi üçün Təşkilat MHBS 16 uyğun olaraq düzxətli metodla icarə xərci tanıyacaq. Təşkilat bu standartın tətbiqinin birləşdirilmiş maliyyə hesabatlarına təsiri qiymətləndirməmişdir.

**MHBS 17 "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 "Sığorta müqavilələri"-ni tətbiq etməlidir.

MHBS 17, 2021-ci il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. MHBS 15 "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 saylı MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

Remove Watermark Now

**MHBS 3** ***Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş*** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"-in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.

Şirkətlər, biznesin yenilənmiş tərifini 2020-ci il yanvarın 1-də və ya ondan sonra baş verən satınalmalara tətbiq etməlidirlər. Daha əvvəl tətbiq edilməsinə icazə verilir.

**"Əhəmiyyətlilik" anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS "*Maliyyə Hesabatlarının Təqdimatı"* və 8 saylı BMUS "*Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"*-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-nin digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsi maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

pdfelement

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvədədir. Erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"** – 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Remove Watermark Now

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Nağd pul vəsaitləri | 14 | 5 |
| Rezident banklardakı cari hesablar | 2,696 | 3,702 |
| Qeyri-rezident banklardakı cari hesablar | 407 | 3,212 |
| Tranzitdə nağd pul vəsaitləri | 81 | 126 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **3,198** | **7,045** |

EOKZ üzrə ölçülmələr məqsədi üçün pul vəsaitləri və onların ekvivalentləri Mərhələ 1-ə aid edilmişdir. Bu qalıqlar üçün EOKZ əhəmiyyətli məbləğ təşkil etmir, ona görə də Təşkilat pul vəsaitləri və onların ekvivalentləri üçün EOKZ tanımamışdır.

## 7. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Verilmiş kreditlər-ticarət | 2,435 | 5,722 |
| Verilmiş kreditlər-kənd təsərrüfatı | 1,998 | 6,678 |
| Verilmiş kreditlər-xidmət | 1,377 | 3,804 |
| Digər kreditlər | 251 | 657 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **6,061** | **16,861** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (2,233) | (3,840) |
| **Cəmi müştərilərə verilmiş kreditlər, xalis** | **3,828** | **13,021** |

31 dekabr 2018 və 2017-ci illərdə bütün kreditlər Azərbaycan Respublikasında fəaliyyət göstərən müştərilərə verilmişdir və bu kreditlərin bir coğrafi regionda konsentrasiyasını göstərir.

pdfelement

Remove Watermark Now

Ehtimal olunan kredit zərəri məqsədilə Təşkilat öz kreditlərini kiçik və iri müştərilər olmaqla qruplaşdırılır. Aşağıdakı cədvəldə müştərilərə verilmiş kreditlərin maliyyə hesabatı dövrünün əvvəli ilə sonu arasındakı müddət üzrə ümumi qalıq məbləğindəki hərəkəti göstərir:

| | **Mərhələ 1 (12 ay EOKZ)** | **Mərhələ 2 (Ömürlük EOKZ)** | **Mərhələ 3 (Ömürlük EOKZ dəyərsizləşdirilmiş)** | **Cəmi** |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş iri kreditlər* | | | | |
| **1 yanvar 2018-ci il tarixinə** | **980** | **7,499** | **4,370** | **12,849** |
| *Mərhələlər arasındakı köçürmələr:* | | | | |
| 1-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | (259) | 259 | - | - |
| 2-ci Mərhələdən 1-ci mərhələyə köçürmə | 134 | (134) | - | - |
| 2-ci Mərhələdən 3-ci mərhələyə köçürmə | - | (2,301) | 2,301 | - |
| 3-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | - | 27 | (27) | - |
| **Cəmi** | **(125)** | **(2,149)** | **2,274** | **-** |
| Yeni əldə edilmiş və satın alınmış maliyyə alətləri | 316 | 1,812 | 390 | 2,518 |
| Digər hərəkətlər | (1,167) | (5,451) | (1,820) | (8,438) |
| Silinmələr | - | - | (1,868) | (1,868) |
| **31 dekabr 2018-ci il tarixinə** | **4** | **1,711** | **3,346** | **5,061** |

pdfelement

| | **Mərhələ 1 (12 ay EOKZ)** | **Mərhələ 2 (Ömürlük EOKZ)** | **Mərhələ 3 (Ömürlük EOKZ dəyərsizləşdirilmiş)** | **Cəmi** |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kiçik kreditlər* | | | | |
| **1 yanvar 2018-ci il tarixinə** | **376** | **2,401** | **1,235** | **4,012** |
| *Mərhələlər arasındakı köçürmələr:* | | | | |
| 1-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | (67) | 67 | - | - |
| 2-ci Mərhələdən 1-ci mərhələyə köçürmə | 22 | (22) | - | - |
| 2-ci Mərhələdən 3-ci mərhələyə köçürmə | - | (690) | 690 | - |
| 3-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | - | 14 | (14) | - |
| **Cəmi** | **(45)** | **(631)** | **676** | **-** |
| Yeni əldə edilmiş və satın alınmış maliyyə alətləri | 318 | 546 | 66 | 930 |
| Digər hərəkətlər | (412) | (2,041) | (572) | (3,025) |
| Silinmələr | - | - | (917) | (917) |
| **31 dekabr 2018-ci il tarixinə** | **237** | **275** | **488** | **1,000** |

Remove Watermark Now

Aşağıdakı cədvəllər hesabat dövrünün əvvəlində və sonunda müştərilərə verilmiş kreditlər üzrə yaradılmış ehtiyat məbləğlərində dəyişiklikləri açıqlayır:

| | Mərhələ 1 (12 ay EOKZ) | Mərhələ 2 (Ömürlük EOKZ) | Mərhələ 3 (Ömürlük EOKZ dəyərsizləşdirilmiş) | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş iri kreditlər* | | | | |
| **1 yanvar 2018-ci il tarixinə** | **22** | **1,262** | **1,812** | **3,096** |
| 1-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | (12) | 26 | - | 14 |
| 2-ci Mərhələdən 1-ci mərhələyə köçürmə | 5 | (23) | - | (18) |
| 2-ci Mərhələdən 3-ci mərhələyə köçürmə | - | (722) | 852 | 130 |
| 3-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | - | 6 | (12) | (6) |
| Yeni əldə edilmiş və satın alınmış maliyyə alətləri | 5 | 118 | 110 | 233 |
| Xalis yenidən ölçülmüş | (20) | (357) | (3,481) | (3,858) |
| Əvvəlki illərdə silinmiş kreditlərin bərpası | - | - | 4,150 | 4,150 |
| Diskontlaşdırma üzrə düzəliş (faiz gəlirlərində tanınmış) | - | - | 96 | 96 |
| Silinmələr | - | - | (1,868) | (1,868) |
| **31 dekabr 2018-ci il tarixinə** | **-** | **310** | **1,659** | **1,969** |

pdfelement

| | Mərhələ 1 (12 ay EOKZ) | Mərhələ 2 (Ömürlük EOKZ) | Mərhələ 3 (Ömürlük EOKZ dəyərsizləşdirilmiş) | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş iri kreditlər* | | | | |
| **1 yanvar 2018-ci il tarixinə** | **7** | **288** | **449** | **744** |
| 1-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | (2) | 4 | - | 2 |
| 2-ci Mərhələdən 1-ci mərhələyə köçürmə | - | (5) | - | (5) |
| 2-ci Mərhələdən 3-ci mərhələyə köçürmə | - | (179) | 229 | 50 |
| 3-ci Mərhələdən 2-ci mərhələyə köçürmə | - | 3 | (7) | (4) |
| Yeni əldə edilmiş və satın alınmış maliyyə alətləri | 3 | 22 | 5 | 30 |
| Xalis yenidən ölçülmüş | (6) | (91) | (939) | (1,036) |
| Əvvəlki illərdə silinmiş kreditlərin bərpası | - | - | 1,400 | 1,400 |
| Diskontlaşdırma üzrə düzəliş (faiz gəlirlərində tanınmış) | - | - | - | - |
| Silinmələr | - | - | (917) | (917) |
| **31 dekabr 2018-ci il tarixinə** | **2** | **42** | **220** | **264** |

Aşağıdakı cədvəllər 31 dekabr 2018-ci il tarixinə təşkilatın müştərilərə verdiyi kreditlərin keyfiyyət təhlilini göstərir. 12 aylıq EOKZ və daimi EOKZ şərtlərinin izahı 21 saylı qeyddə açıqlanır. Aşağıdakı cədvəldəki kredit keyfiyyəti, Təşkilat tərəfindən daxili olaraq hazırlanmış qalıq üzərində qurulmuşdur. Bu qalıqlar 21 saylı qeyddə təsvir edilmişdir.

Remove Watermark Now



| | Mərhələ 1 (12 ay EOKZ) | Mərhələ 2 (Ömürlük EOKZ) | Mərhələ 3 (Ömürlük EOKZ dəyərsizləşdirilmiş) | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş iri kreditlər* | | | | |
| Cari | 4 | 977 | - | 981 |
| 1-30 gün vaxtı keçmiş | - | 416 | - | 416 |
| 31-60 gün vaxtı keçmiş | - | 168 | - | 168 |
| 61-90 gün vaxtı keçmiş | - | 150 | 74 | 224 |
| 90 gündən artıq vaxtı keçmiş | - | - | 3,272 | 3,272 |
| **Cəmi müştərilərə verilmiş ümumi kreditlər** | **4** | **1,711** | **3,346** | **5,061** |
| Çıxılsın: Ehtimal olunan kredit zərəri | - | (310) | (1,659) | (1,969) |
| **Cəmi müştərilərə verilmiş xalis kreditlər** | **4** | **1,401** | **1,687** | **3,092** |

| | Mərhələ 1 (12 ay EOKZ) | Mərhələ 2 (Ömürlük EOKZ) | Mərhələ 3 (Ömürlük EOKZ-dəyərsizləşdirilmiş) | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kiçik kreditlər* | | | | |
| Cari | 236 | 117 | - | 353 |
| 1-30 gün vaxtı keçmiş | 1 | 89 | - | 90 |
| 31-60 gün vaxtı keçmiş | - | 47 | - | 47 |
| 61-90 gün vaxtı keçmiş | - | 22 | - | 22 |
| 90 gündən artıq vaxtı keçmiş | - | - | 488 | 488 |
| **Müştərilərə verilmiş ümumi kreditlər** | **237** | **275** | **488** | **1,000** |
| Çıxılsın: Ehtimal olunan kredit zərəri | (2) | (42) | (220) | (264) |
| **Cəmi müştərilərə verilmiş xalis kreditlər** | **235** | **233** | **268** | **736** |

pdfelement

Remove Watermark Now



Aşağıda 31 dekabr, 2017-cı il tarixinə kredit portfelinin keyfiyyətinin təhlili təqdim edilmişdir:

| | Dəyərsizləşmə ehtiyatından əvvəl kreditlər | Dəyərsizləş-mə ehtiyatı | Dəyərsizləş-mə ehtiyatı çıxıldıqdan sonra kreditlər | Dəyərsizləşmə ehtiyyatından əvvəl dəyərsizşləşmə ehtiyatının əmsalı |
|---|---|---|---|---|
| **Kənd təsərrüfatı kreditləri** | | | | |
| *Birgə qiymətləndirilən kreditlər* | | | | |
| Cari kreditlər (vaxtı keçməmiş) | 3,006 | (197) | 2,809 | 6.55% |
| 1 - 30 gün müddətinə gecikdirilmiş | 886 | (178) | 708 | 20.09% |
| 31 - 60 gün müddətinə gecikdirilmiş | 478 | (133) | 345 | 27.82% |
| 61 - 90 gün müddətinə gecikdirilmiş | 364 | (117) | 246 | 32.23% |
| 91 - 180 gün müddətinə gecikdirilmiş | 1,237 | (421) | 817 | 34.01% |
| 180 gündən artıq müddətə gecikdirilmiş | 707 | (240) | 467 | 33.95% |
| **Cəmi kənd təsərrüfatı kreditləri** | **6,678** | **(1,286)** | **5,392** | **19.26%** |
| **Ticarət kreditləri** | | | | |
| *Birgə qiymətləndirilən kreditlər* | | | | |
| Cari kreditlər (vaxtı keçməmiş) | 2,368 | (363) | 2,005 | 15.33% |
| 1 - 30 gün müddətinə gecikdirilmiş | 774 | (219) | 555 | 28.29% |
| 31 - 60 gün müddətinə gecikdirilmiş | 283 | (91) | 192 | 32.16% |
| 61 - 90 gün müddətinə gecikdirilmiş | 303 | (109) | 194 | 35.97% |
| 91 - 180 gün müddətinə gecikdirilmiş | 1,149 | (412) | 737 | 35.86% |
| 180 gündən artıq müddətə gecikdirilmiş | 845 | (303) | 542 | 35.86% |
| **Cəmi ticarət kreditləri** | **5,722** | **(1,497)** | **4,225** | **26.16%** |
| **Xidmət kreditləri** | | | | |
| *Birgə qiymətləndirilən kreditlər* | | | | |
| Cari kreditlər (vaxtı keçməmiş) | 1,527 | (179) | 1,348 | 11.72% |
| 1 - 30 gün müddətinə gecikdirilmiş | 539 | (141) | 398 | 26.16% |
| 31 - 60 gün müddətinə gecikdirilmiş | 272 | (82) | 190 | 30.15% |
| 61 - 90 gün müddətinə gecikdirilmiş | 219 | (74) | 145 | 33.79% |
| 91 - 180 gün müddətinə gecikdirilmiş | 830 | (289) | 541 | 34.82% |
| 180 gündən artıq müddətə gecikdirilmiş | 417 | (145) | 272 | 34.77% |
| **Cəmi xidmət kreditləri** | **3,804** | **(910)** | **2,894** | **23.92%** |
| **Digər kreditlər** | | | | |
| *Birgə qiymətləndirilən kreditlər* | | | | |
| Cari kreditlər (vaxtı keçməmiş) | 237 | (15) | 222 | 6.33% |
| 1 - 30 gün müddətinə gecikdirilmiş | 85 | (19) | 66 | 22.35% |
| 31 - 60 gün müddətinə gecikdirilmiş | 41 | (12) | 29 | 29.27% |
| 61 - 90 gün müddətinə gecikdirilmiş | 68 | (22) | 46 | 32.35% |
| 91 - 180 gün müddətinə gecikdirilmiş | 105 | (36) | 69 | 34.29% |
| 180 gündən artıq müddətə gecikdirilmiş | 121 | (43) | 78 | 35.54% |
| **Cəmi digər kreditlər** | **657** | **(147)** | **510** | **22.37%** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **16,861** | **(3,840)** | **13,021** | **22.77%** |

pdfelement

Remove Watermark Now

***Kreditlər üzrə girovların qoyulması.*** Aşağıdakı cədvəldə müştərilərə verilmiş kreditlərin qalıq dəyəri Təşkilat tərəfindən əldə edilən girovun növü üzrə təhlil edillir:

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| Girovsuz kreditlər | 1,071 | 4,150 |
| Zəmanətlə təmin olunmuş kreditlər | 3,926 | 10,058 |
| Kreditlər – mal-material təminatı ilə | 480 | 947 |
| Kreditlər – daşınmaz əmlak təminatı ilə | 399 | 1,162 |
| Kreditlər – əmlak təminatı ilə | 94 | 299 |
| Kreditlər – nəqliyyat vasitələri təminatı ilə | 75 | 216 |
| Kreditlər – ev təsərrüfatı təminatı ilə | 16 | 24 |
| Kreditlər – qızıl təminatı ilə | - | 5 |
| **Müştərilərə verilmiş cəmi kreditlər, ümumi** | **6,061** | **16,861** |
| Çıxılsın: gözlənilən kredit itkisi üzrə ehtiyat | (2,233) | (3,840) |
| **Müştərilərə verilmiş cəmi kreditlər, xalis** | **3,828** | **13,021** |

pdfelement

Remove Watermark Now

## 8. ƏMLAK, TİKİLİ QEYRİ-MADDİ AKTİVLƏR

| | Mebel və ofis təchizatı | Kompüter avadanlıqları | Digər aktivlər | Cəmi əmlak və avadanlıqlar | Qeyri-maddi aktivlər | Cəmi əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyərdə** | | | | | | |
| **1 yanvar 2017-ci il** | **1,707** | **1,163** | **1,097** | **3,967** | **3,851** | **7,818** |
| Əlavələr | 1 | 10 | - | 11 | 14 | 25 |
| Silinmələr | (772) | (256) | (795) | (1,823) | - | (1,823) |
| **31 dekabr, 2017-ci il** | **936** | **917** | **302** | **2,155** | **3,865** | **6,020** |
| Əlavələr | - | 31 | - | 31 | 1 | 32 |
| Silinmələr | (336) | (137) | (106) | (579) | - | (579) |
| **31 dekabr, 2018-ci il** | **600** | **811** | **196** | **1,607** | **3,866** | **5,473** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| **1 yanvar 2017-ci il** | **1,332** | **1,009** | **748** | **3,089** | **3,791** | **6,880** |
| Köhnəlmə üzrə xərclər | 146 | 106 | 155 | 407 | 70 | 477 |
| Silinmələr | (633) | (255) | (646) | (1,534) | - | (1,534) |
| **31 dekabr 2017-ci il** | **845** | **860** | **257** | **1,962** | **3,861** | **5,823** |
| Köhnəlmə üzrə xərclər | 24 | 30 | 22 | 76 | 5 | 81 |
| Silinmələr | (328) | (136) | (104) | (568) | - | (568) |
| **31 dekabr 2018-ci il** | **541** | **754** | **175** | **1,470** | **3,866** | **5,336** |

pdfelement

Remove Watermark Now

| | Mebel və ofis təchizatı | Kompüter avadanlıqları | Digər aktivlər | Cəmi əmlak və avadanlıqlar | Qeyri-maddi aktivlər | Cəmi əmlak, avadanlıqlar və qeyri-maddi |
|---|---|---|---|---|---|---|
| **Xalis qalıq dəyəri** | | | | | | |
| **31 dekabr 2017-ci il** | **91** | **57** | **45** | **193** | **4** | **197** |
| **31 dekabr 2018-ci il** | **59** | **57** | **21** | **137** | **-** | **137** |

31 dekabr 2018 və 2017-ci il tarixlərinə əmlak, avadanlıq və qeyri-maddi aktivlərə müvafiq olaraq 5,038 min AZN və 5,378 min AZN məbləğində tamamilə dəyərsizləşmiş aktivlər daxil olmuşdur.

pdfelement

Remove Watermark Now

## 9. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| **Digər maliyyə aktivləri:** | | |
| Xarici təşkilatda məhdudlaşdırılmış pul vəsaitləri | - | 425 |
| Digər maliyyə aktivləri | 18 | - |
| **Cəmi digər maliyyə aktivləri** | **18** | **425** |
| **Digər qeyri-maliyyə aktivləri:** | | |
| Mənfəət vergisindən başqa digər əvvəlcədən ödənilmiş vergilər | 199 | - |
| Geri alınmış girovlar | 155 | 134 |
| Əvvəlcədən ödənilmiş xidmət haqları | 90 | 124 |
| Əvvəlcədən ödənilmiş icarə | 44 | 58 |
| **Cəmi digər qeyri-maliyyə aktivləri** | **488** | **316** |
| **Cəmi digər aktivlər** | **506** | **741** |

## 10. BORC ALINMIŞ VƏSAİTLƏR

pdfelement

| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Beynəlxalq maliyyə institutlarından alınmış kreditlər | - | 2,275 |
| İnkişaf üzrə beynəlxalq maliyyə təşkilatlarından alınmış kreditlər | - | 7,879 |
| **Cəmi borc alınmış vəsaitlər** | **-** | **10,154** |

15 mart 2016-cı ildən etibarən Təşkilat kreditorlarla bağladığı müvafiq müqavilələrə əsasən olan, əsas borc və faiz məbləğləri üzrə öhdəliklərini tam icra etməmişdir. Kreditorlar kreditlərin restruktirizasiya edilməsinə və tələb hüququnun güzəşti haqqında müqavilənin bağlanmasına razılıq vermişdir. Təşkilat kreditorlarla tələb hüququnun güzəşti haqqında müqavilələri 2016-cı ilin oktyabr və dekabr aylarında müvafiq olaraq, 25,646 min AZN və 7,606 min AZN məbləğində borclara dair bağlamışdır. Kreditorlar əsas borcun bəzi hissəsini və müvafiq müqavilələr üzrə yığılmış faiz məbləğlərini bağışlamışdır. Bütün kreditorlar tələb hüququnun güzəşti prosesində iştirak etmişdir. Bağışlanan məbləğlər kreditorlar arasında proporsional qaydada paylanmışdır.

7 aprel 2017-ci il tarixində Təşkilat öz müştərilərindən alınacaq vəsaitlərin toplanılması və yeni müştərilərə veriləcək kreditlərin məbləğini azaltmaqla kreditorlar qarşısında mövcud olan restrukturizasiya olunmuş öhdəliklərin qalıq hissəsini ödəyə bilmək və Təşkilatın Azərbaycan Respublikasının qanunvericiliyi əsasında ləğvetmə prosesini həyata keçirmək məqsədilə kreditorlarla ƏDS imzalamışdır.

2017-ci ilin mart, may və iyun aylarında imzalanmış restrukturizasiya müqavilələrinə əsasən, həmin aylar üzrə müvafiq olaraq 11,502 min AZN, 8,901 min AZN və 4,434 min AZN məbləğlərində qalıqlar və 2017-ci il üzrə 5,071 min AZN məbləğində hesablanmış faizlər kreditorlar tərəfindən silinmişdir.

Remove Watermark Now

2018-ci il ərzində Təşkilat kreditorlara olan borc üzrə bütün əsas məbləğləri geri ödəmişdir.

Borc alınmış vəsaitlərin ilkin və son məbləğlərinin, maliyyə fəaliyyətlərindən əldə edilmiş müvafiq nağd və qeyri-nağd pul vəsaitləri ilə üzləşdirilməsi aşağıdakı kimidir:

| | **Məbləğ** |
|---|---|
| **1 yanvar 2017-ci il** | **94,051** |
| **Pul vəsaitlərinin axını** | |
| Ödəniş | (56,234) |
| Ödənilmiş faiz | - |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 5,071 |
| Məzənnə fərqləri | (2,826) |
| Kredit guzəştləri | (29,908) |
| **31 dekabr 2017-ci il** | **10,154** |
| **Pul vəsaitlərinin axını** | |
| Ödəniş | (11,118) |
| Ödənilmiş faiz | - |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 962 |
| Digər dəyişikliklər | 2 |
| **31 dekabr 2018-ci il** | - |

pdfelement

## 11. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2018-ci il** | **31 dekabr 2017-ci il** |
|---|---|---|
| **Digər maliyyə öhdəlikləri:** | | |
| İstifadə olunmamış məzuniyyət üzrə ödənişlər | 238 | 186 |
| Ödəniləcək peşəkar xidmət haqları | 190 | 205 |
| İşçilərə ödənişlər | 41 | 1,048 |
| Müvafiq tərəflərə ödənilən xidmət haqları | 39 | 259 |
| Digər | 5 | 93 |
| **Cəmi digər maliyyə öhdəlikləri** | **513** | **1,791** |
| **Digər qeyri-maliyyə öhdəlikləri:** | | |
| Mənfəət vergisindən başqa digər vergilər | 136 | 14 |
| Digər | 87 | - |
| **Cəmi digər qeyri-maliyyə öhdəlikləri** | **223** | **14** |
| **Cəmi digər öhdəliklər** | **736** | **1,805** |

Remove Watermark Now



## 12. XALİS FAİZ GƏLİRİ

| | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017- ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Faiz gəliri aşağıdakılardan ibarətdir:** | | |
| - müştərilərə verilmiş kreditlər üzrə faiz gəlirləri | 967 | 7,120 |
| **Cəmi faiz gəliri** | **967** | **7,120** |
| **Faiz xərcləri aşağıdakılardan ibarətdir:** | | |
| - borc alınmış vəsaitlər üzrə faiz xərcləri | (962) | (5,071) |
| **Cəmi faiz xərcləri** | **(962)** | **(5,071)** |
| **Xalis faiz gəliri** | **5** | **2,049** |

## 13. MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABLARINDA ƏDALƏTLİ DƏYƏRLƏ QEYDƏ ALINMIŞ MALİYYƏ AKTİVLƏRİ VƏ ÖHDƏLİKLƏRİ ÜZRƏ CƏMİ XALİS (ZƏRƏR)/GƏLİR

pdfelement

| | 31 dekabr 2018- ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017- ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeydə alınmış maliyyə aktivləri və öhdəlikləri üzrə xalis (zərər)/gəlir aşağıdakılardan ibarətdir: | | |
| Törəmə alətlər üzrə reallaşdırılmış zərər | - | (792) |
| **Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeydə alınmış maliyyə aktivləri və öhdəlikləri üzrə cəmi xalis (zərər)/gəlir** | **-** | **(792)** |

## 14. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS GƏLİR/(ZƏRƏR)

Xarici valyuta əməliyyatları üzrə xalis gəlir/(zərər) aşağıda göstərilmişdir:

| | 31 dekabr 2018- ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2017- ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Xarici valyuta çevrilməsi üzrə xalis zərər | - | (338) |
| Xarici valyuta çevrilməsi üzrə gəlir/(zərər) | 8 | 667 |
| **Xarici valyuta əməliyyatları üzrə gəlir/(zərər)** | **8** | **329** |

Remove Watermark Now

## 15. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

İnzibati və digər əməliyyat xərcləri aşağıdakı bəndlərdən ibarətdir:

| | **31 dekabr, 2018-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr, 2017-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Əmək haqqı | (1,644) | (5,283) |
| Peşəkar xidmətlər | (835) | (2,758) |
| Müavinət, həvəsləndirici və digər mükafatlar | (818) | (1,316) |
| İcbari sosial təminat öhdəlikləri | (603) | (1,208) |
| İcarə xərcləri | (236) | (554) |
| İnformasiya texnologiyaları üzrə peşəkar xidmətlər | (131) | (413) |
| Rabitə xərcləri | (94) | (259) |
| Amortizasiya və köhnəlmə xərcləri | (81) | (477) |
| Bank komissiyaları | (77) | (228) |
| Ezamiyyə xərcləri | (66) | (81) |
| İstehlak materialları və ofis təchizatı | (30) | (120) |
| Vergi ödənişləri (mənfəət vergisi istisna olmaqla) | (5) | (10) |
| Mühafizə xərcləri | - | (64) |
| Digər xərclər | (45) | (146) |
| **Ümumi inzibati və digər əməliyyat xərcləri** | **(4,665)** | **(12,917)** |

pdfelement

## 16. MƏNFƏƏT VERGİSİ

Təşkilat öz cari mənfəət vergisi ödənişlərini və aktivlər və öhdəliklərindəki vergi mənbəyini fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının BMS-dən fərqlənən vergi qaydalarına əsasən hesablayır və qeydə alır.

Təşkilata, müəyyən xərclərin qeyri-vergi tutulmaları və müəyyən gəlirlərin vergi tutulmayan olaraq nəzərdə tutulması səbəbindən müəyyən daimi vergi fərqlərinə məruz qalır.

Təxirə salınmış vergi, maliyyə hesabatlılığı və vergi məqsədli məbləğlər üçün aktivlər və öhdəliklərin balans dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi effektini əks etdirir. 31 dekabr, 2018-ci il və 31 dekabr, 2017-ci il tarixlərində başa çatmış illər üzrə müvəqqəti fərqlər gəlir və xərclərin fərqli vaxtlarda və fərqli metodlarla tanınması və müəyyən aktivlər üçün vergi kitabı bazasında yer alan müvəqqəti fərqlərdən qaynaqlanır.

Aşağıdakı üzləşmədə istifadə edilən vergi dərəcəsi Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən korporativ müəssisələrin vergi qanunu əsasında vergi tutulan mənfəətdən ödədiyi 20%-lik korporativ vergi dərəcəsidir.

Remove Watermark Now



| | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|
| Təxirə salınmış mənfəət vergisi aktivləri/(öhdəlikləri), aşağıdakılarla əlaqədar olmuşdur: | | |
| Növbəti ilə keçirilmiş vergi zərəri | 415 | - |
| Digər aktivlər | 233 | 252 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 213 | 262 |
| Müştərilərə verilmiş kreditlər | 138 | 752 |
| Digər öhdəliklər | 47 | 287 |
| Borc vəsaitləri | - | (192) |
| Tanınmamış təxirə salınmış vergi aktivi | (371) | (986) |
| **Xalis təxirə salınmış mənfəət vergisi aktivi** | **675** | **375** |

Təşkilat, müştərilərə verilmiş kreditlər üçün vergi bazasını azaldan fərqləri təxmin etmək üçün, aşağıdakı halları təhlil etmişdir:

- Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq, müştərilərə verilmiş kreditlərin dəyərsizləşmə itkisi vergi bazasını azaltmayan xərcdir;
- Müştərilərə kredit verilməsi nəticəsində yaranan itkilər vergi bazasını azaldan xərcdir;
- Təşkilat işləməyən kreditlərini üçüncü tərəflərə satmağa başlamağı planlaşdırır və hal hazırda müvafiq strategiyaları təkmilləşdirir.

pdfelement

31 dekabr, 2018-ci il və 31 dekabr, 2017-ci il tarixlərində başa çatmış illər üzrə effektiv vergi dərəcəsi üzləşməsi aşağıda qeyd edilmişdir:

| | 31 dekabr, 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr, 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Mənfəət vergisindən əvvəlki (itki)/mənfəət | (158) | 16,837 |
| Qanuni vergi dərəcəsi (20%) ilə hesablanmış vergi | 32 | (3,367) |
| Tanınmamış təxirə salınmış mənfəət vergisi aktivlərindəki dəyişikliklər | 615 | (2,356) |
| Daimi fərqlərin vergi effektləri | (347) | (222) |
| **Mənfəət vergisi gəliri/(xərci)** | **300** | **(5,945)** |
| Cari mənfəət vergisi xərci | - | (6,320) |
| Təxirə salınan mənfəət vergisi gəliri | 300 | 375 |
| **Mənfəət vergisi gəliri/(xərci)** | **300** | **(5,945)** |

| | 31 dekabr, 2018-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr, 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İlin əvvəlində – təxirə salınmış mənfəət vergisi aktivləri | 375 | - |
| Təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişikliklər | 300 | 375 |
| **İlin sonunda – təxirə salınmış mənfəət vergisi aktivləri** | **675** | **375** |

Remove Watermark Now

## 17. ƏLAQƏLİ TƏRƏFLƏRƏ APARILAN ƏMƏLİYYATLAR

BMUS 24 "Əlaqəli tərəflərlə bağlı qeydlər" standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Müəssisənin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Müəssisənin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Müəssisənin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Müəssisə tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Müəssisənin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Müəssisənin və ya ana şirkətin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Müəssisənin keçmiş işçiləri və ya Müəssisənin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Təşkilatın daxili siyasətinə əsasən, işçilərə, idarə heyətinin üzvlərinə, onların ailə üzvləri və yaxın qohumlarına, və müəssisənin idarəsi və nəzarətində olan digər şəxslərə kredit verilmir.

Təşkilatın 31 dekabr 2018-ci və 2017-ci il tarixinə əlaqəli tərəflərə aid aşağıdakı qalıqları mövcud olmuşdur:

| | 31 dekabr, 2018-ci il | | 31 dekabr, 2017-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Digər öhdəliklər** | | **736** | | **1,805** |
| - *Ana şirkət* | 39 | | 259 | |

31 dekabr 2018-ci və 2017-ci il tarixlərində başa çatmış il üzrə məcmu gəlir hesabatına aşağıdakı əlaqəli tərəflərlə əməliyyatlar daxildir:

| | 31 dekabr, 2018-ci il | | 31 dekabr, 2017-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Rəhbərliyin müavinətləri** | | **3,065** | | **7,807** |
| - *işçilərin qisamüddətli müavinətləri* | 1,306 | | 1,787 | |

Remove Watermark Now

| | 31 dekabr, 2018-ci il | | 31 dekabr, 2017-ci il | |
|---|---|---|---|---|
| | Əlaqəli tərəflərlə olan qalıqlar | Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ | Əlaqəli tərəflərlə olan qalıqlar | Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ |
| **İnzibati və digər əməliyyat xərcləri (əmək haqqı xərcləri istisna olmaqla)** | | **1,600** | | **5,110** |
| - *Ana şirkət* | 169 | | 405 | |

## 18. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində Təşkilat müştərilərinin tələbatlarını qarşılamaq məqsədilə balansdan kənar risklər yarada biləcək maliyyə alətlərində tərəf kimi çıxış edir. Müxtəlif kredit risklərinə malik bu alətlər maliyyə vəziyyəti hesabatında öz əksini tapmamışdır.

Təşkilat balansarxası öhdəliklər üzrə maliyyə və öhdəliklərində tətbiq edilən kredit nəzarət və idarəetmə siyasətindən istifadə edir.

***Məhkəmə prosesləri*** – Təşkilat vaxtaşırı adi fəaliyyəti müddətində müştərilər və müqavilə tərəflərinin irəli sürdüyü iddialarla üzləşir. Rəhbərlik belə düşünür ki, heç bir – hesaba alınmamış mühüm itkilər baş verməyəcək və müvafiq olaraq bunun üçün maliyyə hesabatlarında ehtiyatlar nəzərdə tutulmamışdır.

***Vergi qanunvericiliyi*** – Azərbaycan Respublikasında bizneslərə təsir edən qanun və qaydalar tez-tez dəyişdiyindən, rəhbərliyin, Təşkilatın fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyi təfsiri müvafiq regional orqanların etirazı ilə üzləşə bilər. Son hadisələr vergi orqanlarının qanunvericiliyin təfsiri və dəyərləndirmələrində daha inadkar mövqe tutduğunu və keçmişdə problem yaşamayan əməliyyat və fəaliyyətlərin artıq etirazlarla üzləşə biləcəyi ehtimalının artdığını göstərir. Maliyyə dövrü vergi auditinin baş tutduğu ildən 3 təqvim ili öncəsinə qədər vergi auditi orqanlarına açıq saxlanılır. Bəzi müəyyən hallarda, yoxlamalar daha uzun dövrləri əhatə edə bilər.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi inkişaf etməyə davam edir və bəzi hallarda təzad yaratmaqla fərqli vergi orqanları tərəfindən fərqli şəkildə təfsir edilərək, qanunvericilikdə, rəsmi elanlarda və məhkəmə qərarlarında sürətlə baş verən dəyişikliklərlə xarakterizə edilir. Vergilər, ağır cərimə, cəza və faiz ödənişi tətbiq etmək səlahiyyəti olan bəzi orqanlar tərəfindən keçirilən baxış və istintaqa tabedir. Vergi ili növbəti 3 təqvim ili ərzində vergi orqanlarına açıq saxlanılır; lakin, bəzi hallarda bu müddət uzadıla bilər. Son hadisələr vergi orqanlarının qanunvericiliyin təfsiri və icrasında daha inadkar mövqe tutduğunu göstərir.

Bu hallar Azərbaycanda başqa ölkələrə nəzərən daha mühüm olan vergi riskləri yarada bilər.

Rəhbərlik hesab edir ki, Azərbaycanda tətbiq olunan vergi qanunvericiliyinə, rəsmi açıqlamalara və məhkəmə qərarlarına əsasən vergi öhdəliklərini adekvat şəkildə təmin etmişdir. Lakin, müvafiq orqanların təfsirləri bundan fərqlənə bilər və bu orqanların öz təfsirlərini icraya qoyduqları halda, bunun maliyyə hesabatlarına olan təsiri mühüm ola bilər.

pdfelement

Remove Watermark Now

## 19. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

BMS, ədalətli dəyəri dəyərləndirmə tarixində, bazar iştirakçıları arasında sifarişli əməliyyat formasında öhdəliyin transferi üçün ödənilən və ya aktivi satmaq üçün qəbul edilən qiymət kimi müəyyən edir.

**Ədalətli dəyər iyerarxiyası**

Təşkilat ədalətli dəyəri aşağıdakı, komponentlərin əhəmiyyətini əks etdirən ədalətli dəyər iyerarxiyası vasitəsilə müəyyənləşdirir:

- **Səviyyə 1**: oxşar alətlər üçün fəal bazarda təyin edilmiş bazar dəyəri (düzəliş edilməmiş)
- **Səviyyə 2**: təyin edilmiş qiymət istisna olmaqla, Səviyyə 1-də qeyd edilmiş və birbaşa (məs. qiymətlər kimi) və ya dolayı (məs. qiymətlərdən qaynaqlanan) yolla müşahidə edilə bilən digər komponentlər. Bu kateqoriyaya, fəal bazarda oxşar alətlər üçün təyin edilmiş dəyərdən, nisbətən daha az fəal olan bazarlarda oxşar alətlər üçün təyin edilmiş dəyərdən, və ya mühüm komponentlərin bazar məlumatlarında birbaşa və ya dolayı yolla müşahidə edilə bilən olduğu digər dəyərləndirmə metodlarından istifadə edərək dəyərləndirilən alətlər daxildir.
- **Səviyyə 3**: müşahidə edilməyən komponentlər. Bu kateqoriyaya dəyərləndirmə metodunun müşahidəyə əsaslanmayan komponentlərdən ibarət olduğu və müşahidə edilməyən komponentlərin dəyərləndirmədə mühüm təsirə malik olduğu alətlər daxildir. Bu kateqoriyaya mühüm müşahidə edilməyən düzəliş və fərziyyələrin alətlər arasındakı fərqləri əks etdirməsi gözlənilən alətlərin bazar dəyəri əsasında dəyərləndirilən alətlər daxildir.

31 dekabr, 2018-ci və 2017-ci il tarixlərinə, Təşkilatın ədalətli dəyərlə qeyd edilmiş heç bir maliyyə aləti olmamışdır.

Aşağıdakı cədvəldə ədalətli dəyəri ölçülməmiş maliyyə alətlərinn ədalətli dəyərləri və ədalətli dəyər iyerarxiyası səviyyələrinə əsaslanan analizi qeyd olunmuşdur.

| | | **Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qimətlər (Səviyyə 1)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri | 31 dekabr 2018-ci il | 3,198 | - | - | **3,198** |
| Müştərilərə verilmiş kreditlər | 31 dekabr 2018-ci il | - | - | 3,828 | **3,828** |
| Digər maliyyə aktivləri | 31 dekabr 2018-ci il | - | - | 18 | **18** |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Borc vəsaitləri | 31 dekabr 2018-ci il | - | - | - | **-** |
| Digər maliyyə öhdəlikləri | 31 dekabr 2018-ci il | - | - | 513 | **513** |

pdfelement

Remove Watermark Now



| | Qiymətləndirmə tarixi | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|
| | | Fəal bazarda təyin olunmuş qimətlər (Səviyyə 1) | Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2) | Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3) | Cəmi |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri | 31 dekabr 2017-ci il | 7,045 | - | - | **7,045** |
| Müştərilərə verilmiş kreditlər | 31 dekabr 2017-ci il | - | - | 13,021 | **13,021** |
| Digər maliyyə aktivləri | 31 dekabr 2017-ci il | - | - | 425 | **425** |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Borc vəsaitləri | 31 dekabr 2017-ci il | - | - | 10,154 | **10,154** |
| Digər maliyyə öhdəlikləri | 31 dekabr 2017-ci il | - | - | 1,791 | **1,791** |

**Ədalətli dəyər ilə uçota alınmayan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri**

Aşağıda Təşkilatın maliyyə vəziyyəti hesabatında ədalətli dəyəri qeyd edilməmiş maliyyə alətlərinin ədalətli dəyərləri və balans dəyərlərinin müqayisəsi verilmişdir. Cədvəldə qeyri-maliyyə aktivləri və qeyri-maliyyə öhdəliklərinin ədalətli dəyərləri qeyd edilməmişdir.

**Ədalətli dəyəri qalıq dəyərinə yaxın olan aktivlər və öhdəliklər**

Likvid və ya ödəmə dövrü qısamüddətli (üç aydan daha az) olan maliyyə aktivləri və maliyyə öhdəlikləri üzrə hesab edilir ki, qalıq dəyərləri ədalətli dəyərlərinə yaxındır. Bu fərziyyə həmçinin xüsusi ödəmə müddəti və dəyişən dərəcəli maliyyə alətləri olmadan, depozitlərə də tətbiq edilir.

**Sabit və dəyişən dərəcəli maliyyə alətləri**

Fəal bazar qiyməti olan borc alətləri üzrə ədalətli dəyər təyin edilmiş bazar qiymətləri əsasında müəyyən edilir. Fəal bazar qiyməti olmayan borc alətlərinin ədalətli dəyəri, hal-hazırda oxşar şərtlər, kredit riski və qalan ödəmə müddəti üzrə borc üçün mövcud olan dərəcələr istifadə etməklə pul vəsaitlərinin gələcək hərəkəti azaldılmaqla qiymətləndirilir.

## 20. KAPİTAL RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Təşkilat öz kapitalını, fəaliyyətini davam etdirmə qabiliyyətini qoruyaraq, borc və kapital balansının optimallaşdırılması yolu ilə səhmdarlara geri ödənişin maksimallaşdırılmasına zəmanət verərək idarə edir. Təşkilat, Azərbaycan Respublikasının Mərkəzi Bankının 21 yanvar 2015-ci il tarixli 01/2 bəndli 4.3.1 saylı qərarına və Maliyyə Bazarlarına Nəzarət Palatasının tələbinə əsasən, minimum 300 min AZN məcmu kapital tələbini qarşılamalıdır.

Rəhbərlik, Təşkilatın kapital idarəetməsi barədə aşağıdakı məqsədləri nəzərdə tutur: Təşkilatın daimilik prinsipi əsasında fəaliyyətini davam etdirmə qabiliyyətini qorumasına əmin olmaq və borcverən və investorlar ilə bağlanmış müqavilə şərtlərinə əməl olunmasının təmin olunması. Bu proses, günlük olaraq, proqnozlaşdırılan və faktiki məlumatlar ilə və idarə heyəti və Təşkilatn baş mühasibi tərəfindən imzalanaraq təsdiq olunan müvafiq hesablamaların yer aldığı aylıq hesabatlarla həyata keçirilir.

Remove Watermark Now



***Daxili audit.*** Daxili Audit risklərin idarə edilməsi proseslərini müstəqil şəkildə yoxlayır, rəhbərliyi aşkarlanmış çatışmazlıqlar barədə məlumatlandırır, və risklərin idarə edilməsi prosesinin inkişafına dair müvafiq tövsiyələrini təqdim edir.

***Risklərin ölçülməsi və hesabatlılıq sistemləri.*** Risklərin idarə edilməsi metodunun seçimi, nisbi əhəmiyyətlilik və ya risklərin ehtimalını müəyyənləşdirən risk faktorından asılıdır hansı ki, Təşkilatın maliyyə vəziyyəti hesabatına əks təsirini göstərə bilər. Təşkilat hər bir riski analiz etmək və ölçməklə yanaşı, toplam risklərin səviyyəsini də müəyyən edir. Bu səbəbdən, hər növ risk üçün, aşağıdakı risklərin ölçülməsi metodları tətbiq edilmişdir:

- kredit portfeli və kredit riski əmsallarının kredit riski təhlilləri;
- balansdan kənar risk;
- faiz dərəcəsinin ödəmə riski və aktivlər və öhdəliklərin faiz dərəcəsi boşluğu təhlili;
- yerli və xarici valyutalarda edilmiş ödənişlərin likvidlik riski boşluğunun təhlili; likvidlik əmsallarının təhlili, likvidlik ehtiyatının müəyyənləşdirilməsi;
- xarici valyutalarda edilmiş ödənişlərin valyuta riski boşluğu təhlili; valyuta mövqeyinin təhlili;
- Təşkilatın maliyyə vəziyyətinə təsiri olan bütün əməliyyatlar üçün əməliyyat riski, fəaliyyətlərin (təşəbbüs, icra və nəzarət) bir-birindən ayrılıqda aparılmasını təmin edən və əməliyyatların başa çatdırılması üçün vacib olan sistemlər tətbiq edilmişdir.

Risklərin ölçülməsi, Təşkilatın fəaliyyət göstərdiyi zaman üzləşə biləcəyi ehtimal edilən zərəri əks etdirir. Maliyyə Şöbəsi, risklərin ayrı-ayrılıqda təhlillərinə əsaslanaraq, hər ay risklərin cari vəziyyəti və əsas səbəblərini göstərən mülahizələr hazırlayır.

pdfelement

Xüsusilə, aylıq AÖİK iclaslarında, faiz dərəcəsi, likvidlik, valyuta və digər bazar risklərinin statusu haqda hesabat verilir.

Həmçinin, Funksional risklərin (əməliyyat – texnoloji, hüquqi, strateji, etibarlı) statusu hər ay İdarə Heyətinə təqdim edilir. Bu hesabatlar rüblük İdarə Heyəti və Audit Komitəsi iclaslarında yoxlanılır.

***Risklərin azaldılması.*** Təşkilatın risklərin minimallaşdırılması üçün, aşağıdakı metodlardan istifadə edir:

- Kredit riskinin azaldılması üçün zəmanət və girovların qəbul edilməsi
- Diversifikasiya – bir-biri ilə əlaqəli olmayan aktivlərin seçimi

**Kredit riski**

**Müştərilərə verilən kreditlər üçün kredit risklərinin ölçülməsi**

Kredit riskləri bazar şəraiti, gözlənilən pul axınları və zamanda olan dəyişikliklər nəticəsində dəyişdiyindən, risklərin idarə edilməsi məqsədilə kredit riskinin ehtimal edilməsi qəlizdir və modellərdən istifadəni tələb edir. Aktivlər portfelinin kredit riskinin dəyərləndirilməsi, defolt ehtimalına oludqda, əlavə olaraq müvafiq zərər nisbətlərinin və qarşı tərəflər arasında defolt korrelyasiyaların qiymətləndirilməsinə gətirib çıxarır. Təşkilat, risklərin idarə edilməsi hesabatlılığı məqsədilə kredit həcmini kredit riskinə məruz qalma kimi nəzərə alır və birləşdirir. Təşkilat kredit riskini Defolt Ehtimalı, Defolta Məruz qalmış Məbləğ (DMM) və Defolz Zamanı Yaranan Zərərdən (DZYZ) istifadə etməklə müəyyənləşdirir. Bu 9 saylı MHBS çərçivəsində EOKZ-un ölçülməsi üçün istifadə olunan yanaşma ilə eynidir.

Remove Watermark Now



**Defolt zamanı yaranan zərər (DZYZ)**

DZYZ defoltun baş verməsi zamanı ehtimal olunan zərərin həcmini təyin edir. Təşkilat DZYZ-nin parametrlərini defolt etmiş qarşı tərəflərə irəli sürülmüş tələblərin nəticəsində əldə edilmiş bərpa dərəcələri ilə bağlı tarixçəyə əsasən qiymətləndirir. DZYZ yalnız pul vəsaitləri şəklində geri qaytarılmış məbləğləri nəzərə alır. DZYZ diskont amili olaraq EFD-dən (effektiv faiz dərəcəsi) istifadə etməklə diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti əsasında hesablanır.

Təminatlı kreditlər üzrə girov dəyərlərindən, təminatsız və zamanətli kreditlər üzrə isə bərpa faizlərindən istifadə edilir.

**Defolt vəziyyətində riskə məruz qalma (EAD)**

EAD Təşkilatın defolt zamanı növbəti 12 aylıq müddətdə (12 aylıq) və ya ömürlük (ömürlük EAD) ehtimal olunan məbləğlərinə əsaslanır.

**Perspektiv məlumatların daxil edilməsi**

Təşkilat perspektiv məlumatı həm kredit riskin dəyərləndirilməsində həm də EOKZ ölçülməsində daxil edir.

Təşkilat keçmiş məlumatların təhlillərini istifadə edərək kredit riskinin və kredit zərərinin portfel üçün olan əsas səbəblərini aşkarlayıb və sənədləşdirmişdir, makro iqtisadi dəyişikliklərin DE və bərpa faizlərinə olan təsirini dəyərləndirmişdir.

pdfelement

***Maksimal kredit həddi.*** Təşkilatın maximal kredit həddi çox dəyişkəndir və ümumi iqtisadi və fərdi risklərdən asılıdır.

Aşağıdakı cədvəl balans və balansdan kənar maddələr üzrə kredit riskinə məruz qalmış maksimal məbləğləri əks etdirir. Balansda olan maliyyə aktivləri üçün riskə məruz qalmış maksimal məbləğ əvəzləşdirmə və girovun dəyəri nəzərə alınmamışdan öncə bu aktivlərin qalıq dəyəri hesab olunur. Şərti öhdəliklər və kredit verilməsi üzrə təəhhüdlərlə bağlı Təşkilatın məruz qaldığı risk məbləği, bütün qarşılıqlı tələblər, girovlar və zamanətlər dəyərsiz hesab olunduğu təqdirdə bu alətlər üzrə müqavilə dəyəri həcmində nəzərə alınır.

| | Maksimal risk | Alınmış təminatlar | Xalis Risk |
|---|---|---|---|
| **31 dekabr, 2018-ci il** | | | |
| Banklardakı nağd pul vəsaitləri | 3,103 | - | 3,103 |
| Müştərilərə verilmiş kreditlər | 3,828 | - | 3,828 |
| Digər maliyyə aktivləri | 18 | - | 18 |
| **31 dekabr, 2017-ci il** | | | |
| Banklardakı nağd pul vəsaitləri | 6,914 | - | 6,914 |
| Müştərilərə verilmiş kreditlər | 13,021 | - | 13,021 |
| Digər maliyyə aktivləri | 425 | - | 425 |

**Girov və digər kredit əlavələrinin təhlili**

Təşkilat, kredit itkisi hesab edilən maliyyə aktivləri üçün girov təminatını yaxından izləyir, çünki Təşkilatın potensial kredit itkisini azaltmaq üçün girov sahibi olma ehtimalı daha yüksəkdir. Potensial itkiləri azaltmaq üçün saxlanılan kredit dəyərsizləşməsi və əlaqəli girov olan maliyyə aktivləri aşağıda göstərilmişdir:

Remove Watermark Now

| **31 dekabr 2018-ci il** | **Ümumi qalıq dəyəri** | **Zərər ehtiyatı** | **Amortizasiya olunmuş dəyər** | **Girovun ədalətli dəyəri** |
|---|---|---|---|---|
| Defolt vəziyyətində kredit portfleli (Mərhələ 3) | | | | |
| Kiçik kreditlər | 488 | (220) | 268 | - |
| İri kreditlər | 3,346 | (1,659) | 1,687 | - |
| **Cəmi** | **3,834** | **(1,879)** | **1,955** | - |

Aşağıdakı cədvəllər müştərilərə verilmiş kreditlər üzrə məbləğlərlə bağlı kredit risklərini Kreditin Məbləğə Nisbəti (KMN) istifadə edilməklə təsnifləşdirirlər. KMN kreditin ümumi məbləğinin və ya kredit verilməsi üçün öhdəlik götürüldüyü məbləğin qarşı tərəfdən götürülmüş girova olan nisbəti kimi hesablanır. Girovun dəyərini hesablayarkən onun rəsmiləşdirilməsi və satılması üçün tələb olunan xərclər nəzərə alınmır.

Aşağıdakı cədvəl Təşkilatın verdiyi kredit dəyərsizləşməsinə uğramış kiçik kreditlər üzrə KMN əmsallarının paylanmasını əks etdirir:

| | **2018** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredit dəyərsizləşməsi üzrə kredit portfeli (Mərhələ 3)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Ümumi Qalıq Dəyəri | Zərər Ehtiyatı | Ümumi Qalıq Dəyəri | Zərər Ehtiyatı |
| Girovsuz | 1,000 | (264) | 488 | (220) |
| **Cəmi** | **1,000** | **(264)** | **488** | **(220)** |

pdfelement

Aşağıdakı cədvəldə KDN-nin Təşkilatın kredit zərərinə uğramış böyük kreditlər portfeli üçün paylanması göstərilir:

| | **2018** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredi dəyərsizləşəsi üzrə kredit portfeli (Mərhələ 3)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Zərər Ehtiyatı | Zərər Ehtiyatı | Zərər Ehtiyatı | Kredit Ehtiyatı |
| Girovsuz | 5,061 | (1,969) | 3,346 | (1,659) |
| **Cəmi** | **5,061** | **(1,969)** | **3,346** | **(1,659)** |

Remove Watermark Now

**Balansdan kənar risklər.** Təşkilat balansdankənar risklərin idarə olunması üçün əsasən balans üzrə mövcud risklərin idarəsində tətbiq etdiyi eyni irdarə siyasətindən istifadə edir. Kredit verilməsi üzrə öhdəliklərin dəyərləndirilməsi zamanı müştərilər və qarşı tərəflər müştərilərə verilmiş kreditlər üzrə tətbiq edilən eyni təhlillərə məruz qalırlar. Qarşı tərəfin gücündən əməliyyatın mahiyyətindən ibarət olaraq qarşı tərəfdən girovun təmin edilməsi istənilə bilər.

***Coğrafi konsenterasiya.*** Təşkilatın 31 dekabr 2018-ci il tarixində maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsenterasiyası aşağıdakı kimi olmuşdur:

| | **Azərbaycan Respublikası** | **İƏT ölkələri** | **Qeyri-İƏT ölkələri** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivaletləri | 2,791 | 407 | - | 3,198 |
| Müştərilərə verilmiş kreditlər | 3,828 | - | - | 3,828 |
| Digər maliyyə öhdəlikləri | 18 | - | - | 18 |
| **Cəmi maliyyə aktivləri** | **6,637** | **407** | **-** | **7,044** |
| Borc alınmış vəsaitlər | - | - | - | - |
| Digər maliyyə öhdəlikləri | 343 | 130 | 40 | 513 |
| **Cəmi maliyyə öhdəlikləri** | **343** | **130** | **40** | **513** |
| **Xalis mövqe** | **6,294** | **277** | **(40)** | **6,531** |

pdfelement

Təşkilatın 31 dekabr 2017-ci il tarixində maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsenterasiyası aşağıdakı kimi olmuşdur:

| | **Azərbaycan Respublikası** | **İƏT ölkələri** | **Qeyri-İƏT ölkələri** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivaletləri | 3,832 | 3,213 | - | 7,045 |
| Müştərilərə verilmiş kreditlər | 13,021 | - | - | 13,021 |
| Digər maliyyə öhdəlikləri | - | 425 | | 425 |
| **Cəmi maliyyə aktivləri** | **16,853** | **3,638** | **-** | **20,491** |
| Borc alınmış vəsaitlər | - | 10,154 | - | 10,154 |
| Digər maliyyə öhdəlikləri | 1,413 | 378 | - | 1,791 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,413** | **10,532** | **-** | **11,945** |
| **Xalis mövqe** | **15,440** | **(6,894)** | **-** | **8,546** |

***Bazar riski.*** Bazar riski bazardakı qiymət və məzənnələr səviyyəsində dəyişikliklərin yaxud onların dalğalanmasının Təşkilatın gəlir və ya kapitalına yaxud da onun biznes məqsədlərinin reallaşdırılması imkanlarına mənfi təsir göstərməsi riskidir.

Bazar riskinə faiz dərəcəsi riski, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və səhm alətlərinin qiyməti aiddir. Təşkilatın ölçmə üsullarında və ya üzləşdiyi riskdə yaxud da qeyd olunan risklərin idarə edildiyi və ölçüldüyü tərzdə heç bir dəyişikliklər baş verməmişdir.

Remove Watermark Now



Təşkilat daxilindəki müəssisələr həm sabit, həm də dəyişkən ("üzən") faiz dərəcələri ilə borc vəsaitlər cəlb etdiyindən Təşkilat faiz riskləri ilə üzləşir. Risk Təşkilat tərəfindən sabit və üzən faiz dərəcələrinin müvafiq şəkildə vəhdəti yaradılmaqla idarə olunur.

AÖİK həmçinin Təşkilatı müsbət faiz marjası ilə təmin edən onun faiz dərəcəsi mövqeyini uyğunlaşdırmaqla faiz riskini və bazar risklərini idarə edir. Maliyyə şöbəsi Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və mənfəətinə təsirini qiymətləndirir.

Təşkilatın faiz xərci yaradan maliyyə öhdəliklərindən bəziləri ya dəyişkən faiz dərəcəsinə malikdir və ya müqavilə üzrə faiz dərəcələri birtərəfli olaraq borc verən tərəfin istəyi ilə dəyişdirilə bilər. Təşkilat öz faiz dərəcəsi marjasına mütəmadi olaraq nəzarət edir və buna görə də özünü əhəmiyyətli səviyyədə faiz dərəcəsi ilə bağlı riskə və bununla da bağlı nağd vəsaitlərin axınına məruz qalmış hesab etmir.

***Valyuta riski.*** Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklər baş verməsi səbəbindən maliyyə alətlərinin dəyəri qeyri-müəyyən olacağı ilə bağlı riskdir. Təşkilat üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

AÖİK təxmin edilən ABŞ dolları məzənnəsinin dəyişməsi və digər makroiqtisadi göstəricilər əsasında açıq valyuta mövqeyinin idarə edilməsi yolu ilə valyuta riskinə nəzarət edir ki, bu da Təşkilata valyutaların milli valyutaya qarşı mübadilə məzənnələrinin dəyişkənliyindən irəli gələn əhəmiyyətli zərərin azaldılması üçün imkan yaradır.

pdfelement

Təşkilat üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

Təşkilatın 31 dekabr 2018-ci il üzrə xarici valyuta məzənnələrindəki dəyişikliklərə məruz qalma mövqeyi aşağıda göstərilir:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 682 | 2,513 | 3 | 3,198 |
| Müştərilərə verilmiş kreditlər | 3,260 | 568 | - | 3,828 |
| Digər maliyyə aktivləri | 18 | - | - | 18 |
| **Cəmi maliyyə aktivləri** | **3,960** | **3,081** | **3** | **7,044** |
| Borc alınmış vəsaitlər | - | - | - | - |
| Digər maliyyə öhdəlikləri | 344 | 169 | - | 513 |
| **Digər maliyyə öhdəlikləri** | **344** | **169** | **-** | **513** |
| **AÇIQ MÖVQE** | **3,616** | **2,912** | **3** | **6,531** |

Remove Watermark Now



Təşkilatın 31 dekabr 2017-ci il üzrə xarici valyuta məzənnələrindəki dəyişikliklərə məruz qalma mövqeyi aşağıda göstərilir:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,536 | 5,509 | - | 7,045 |
| Müştərilərə verilmiş kreditlər | 10,144 | 2,877 | - | 13,021 |
| Digər maliyyə aktivləri | 425 | - | - | 425 |
| **Cəmi maliyyə aktivləri** | **12,105** | **8,386** | **-** | **20,491** |
| Borc alınmış vəsaitlər | 2,890 | 7,264 | - | 10,154 |
| Digər maliyyə öhdəlikləri | 1,355 | 436 | - | 1,791 |
| **Digər maliyyə öhdəlikləri** | **4,245** | **7,700** | **-** | **11,945** |
| **AÇIQ MÖVQE** | **7,860** | **686** | **-** | **8,546** |

Aşağıdakı cədvəldə 31 dekabr 2018 və 2017-ci il tarixlərinə manatın müvafiq xarici valyutalara qarşı mübadilə məzənnəsinin 10% dərəcəsində artması və ya azalması halına qarşı Təşkilatın həssaslığını göstərən təfərrüatlar açıqlanır. Təşkilat daxilində əsas rəhbərlik heyətinə məruzə olunarkən 10%-lik həssaslıq dərəcəsinə istinad edilir və bu dərəcə rəhbərliyin xarici valyuta məzənnələrində kifayət qədər mümkün dəyişikliklərin baş verməsi ilə bağlı qiymətləndirməsini göstərir.

pdfelement

| | **2018** | |
|---|---|---|
| | **Vergidən əvvəl mənfəət və zərərə təsiri** | **Kapitala təsiri** |
| ABŞ dolları məzənnəsinin 10% artması | 291 | 233 |
| ABŞ dolları məzənnəsinin 10% azalması | (291) | (233) |

| | **2017** | |
|---|---|---|
| | **Vergidən əvvəl mənfəət və zərərə təsiri** | **Kapitala təsiri** |
| ABŞ dolları məzənnəsinin 10% artması | 69 | 55 |
| ABŞ dolları məzənnəsinin 10% azalması | (69) | (55) |

**Faiz dərəcəsi riski.** Faiz dərəcəsi riski faiz dərəcəsində dəyişiklikləri maliyyə alətlərinin ədalətli dəyərinə və yaxud maliyyə alətləri üzərində gələcək pul vəsaitlərinin axınına təsir etmə ehtimalından yaranır. Təşkilatın faiz dərəcəsi ilə bağlı siyasəti bazar şərtlərinə əsasən pul vəsaitləri yerləşdirmək və cəlb etmək məqsədilə İdarə Heyəti tərəfindən dövri əsasda nəzər salınır.

Remove Watermark Now



Təşkilat bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri mütəmadi olaraq hesablamaqla ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Maliyyə Departamenti Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun gəlirliyinə təsirini hesablayır.

Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda maliyyə alətləri üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Təşkilat daxilində faiz dərəcəsi riski barədə əsas idarə heyətinə məlumat verildikdə 50 (0.5%) baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

Faizlərin 50 (0.5%) baza dərəcəsində artdığı/azaldığı və bütün digər dəyişən göstəricilər sabit saxlanıldığı təqdirdə, Təşkilatın:

| | **2018** | | **2017** | |
|---|---|---|---|---|
| | **Vergidən əvvəl mənfəət və zərərə təsiri** | **Kapitala təsiri** | **Vergidən əvvəl mənfəət və zərərə təsiri** | **Kapitala təsiri** |
| Faiz dərəcəsinin 0.5% artması | 19 | 15 | 14 | 11 |
| Faiz dərəcəsinin 0.5% azalması | (19) | (15) | (14) | (11) |

**Həssaslıq təhlili üzrə məhdudiyyətlər.** Yuxarıda qeyd olunan cədvəllər digər ehtimallar dəyişmədiyi halda əsas ehtimaldakı dəyişikliyin təsirini əks etdirir. Əslində, ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və iri yaxud xırda təsirlər bu nəticələrdən interpolyasiya və ya ekstrapolyasiya edilməməlidir.

Yuxarıdakı həssaslıq təhlillərinin digər məhdudiyyətlərinə Təşkilatın yalnız dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks etdirən potensial riski nümayiş etdirmək üçün şərti (hipotetik) bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət edəcəyi ilə bağlı təxminlər daxildir.

**Likvidlik riski.** Likvidlik riski ödəniş vaxtı çatdıqda maliyyə alətləri ilə bağlı maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün kifayət qədər vəsaitlərin mövcud olması ilə bağlı riskdir. Likvidlik riskini idarə etmək üçün Təşkilat aktivlər/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olaraq müştərilər və Təşkilatın əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitləri hərəkətinin gündəlik monitorinqini həyata keçirir.

pdfelement

Remove Watermark Now

Aşağıda 31 dekabr 2018-ci il tarixinə proqnozlaşdırılmış ödəniş müddətləri ilə bağlı təhlil təqdim edilir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 6 aya qədər | 7 aydan 1 ilə qədər | 1 ildən 3 ilə qədər | Ödəmə müddəti müəyyən olunmamış/ gecikmiş | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Faiz dərəcəli alətlər | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | 217 | 286 | 437 | 543 | 682 | 1,663 | 3,828 |
| Cəmi faiz hesablanan maliyyə aktivləri | 217 | 286 | 437 | 543 | 682 | 1,663 | 3,828 |
| Faiz hesablanmayan maliyyə aktivləri | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,198 | - | - | - | - | - | 3,198 |
| Digər maliyyə aktivləri | 18 | - | - | - | - | - | 18 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | 3,216 | - | - | - | - | - | 3,216 |
| **Cəmi maliyyə aktivləri** | **3,433** | **286** | **437** | **543** | **682** | **1,663** | **7,044** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 102 | 130 | - | - | - | 281 | 513 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri | 102 | 130 | - | - | - | 281 | 513 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | **102** | **130** | **-** | **-** | **-** | **281** | **513** |
| Likvidlik kəsiri | 3,331 | 156 | 437 | 543 | 682 | 1,382 | 6,531 |
| **Məcmu likvidlik kəsiri** | **3,331** | **3,487** | **3,924** | **4,467** | **5,149** | **6,531** | |

pdfelement

Remove Watermark Now

Aşağıda 31 dekabr 2017-ci il tarixinə proqnozlaşdırılmış ödəniş müddətləri ilə bağlı təhlil təqdim edilir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 6 aya qədər | 7 aydan 1 ilə qədər | 1 ildən 3 ilə qədər | Ödəmə müddəti müəyyən olunmamış/ gecikmiş | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Faiz dərəcəli alətlər | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | 1,158 | 770 | 1,649 | 2,075 | 3,146 | 4,223 | 13,021 |
| Cəmi sabit faiz gətirən maliyyə aktivləri | **1,158** | **770** | **1,649** | **2,075** | **3,146** | **4,223** | **13,021** |
| Faiz hesablanmayan maliyyə aktivləri | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,045 | - | - | - | - | - | 7,045 |
| Digər maliyyə aktivləri | 425 | - | - | - | - | - | 425 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | 7,470 | - | - | - | - | - | 7,470 |
| **Cəmi maliyyə aktivləri** | **8,628** | **770** | **1,649** | **2,075** | **3,146** | **4,223** | **20,491** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Faiz dərəcəsi aləti | | | | | | | |
| Borc alınmış vəsaitlər | 1,053 | 1,849 | 3,008 | 4,244 | - | - | 10,154 |
| Cəmi sabit və dəyişkən dərəcəli faiz yaradan maliyyə öhdəlikləri | 1,053 | 1,849 | 3,008 | 4,244 | - | - | 10,154 |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 447 | 1,087 | - | - | - | 257 | 1,791 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri | 447 | 1,087 | - | - | - | 257 | 1,791 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | **1,500** | **2,936** | **3,008** | **4,244** | **-** | **257** | **11,945** |
| Likvidlik kəsiri | 7,128 | (2,166) | (1,359) | (2,169) | 3,146 | 3,966 | 8,546 |
| **Məcmu likvidlik kəsiri** | **7,128** | **4,962** | **3,603** | **1,434** | **4,580** | **8,546** | |

pdfelement

Remove Watermark Now



***Kredit reytiniqinin təhlili.*** Aşağıdakı cədvəldə Təşkilatın saxladığı vaxtı keçməmiş və dəyərsizləşməmiş maliyyə aktivlərinin kredit reytinqləri təhlil edilir:

| **31 dekabr 2018-ci il** | **AA-** | **A1** | **B3** | **Ba3** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | 407 | - | 88 | 2,548 | 60 | 3,103 |
| Müştərilərə verilmiş kreditlər | - | - | - | - | 3,828 | 3,828 |
| Digər maliyyə aktivləri | - | - | - | - | 18 | 18 |

| **31 dekabr 2017-ci il** | **AA-** | **A1** | **B3** | **Ba3** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | 3,212 | - | 26 | 3,567 | 109 | 6,914 |
| Müştərilərə verilmiş kreditlər | - | - | - | - | 13,021 | 13,021 |
| Digər maliyyə aktivləri | - | 425 | - | - | - | 425 |

Təşkilat beynəlxalq agentliklər tərəfindən reytinq dərəcəsi verilməmiş tərəflərlə bir çox sazişlər bağlayır. Təşkilat qarşı tərəflərin beynəlxalq reytinq agentliklərinin təqdim etdiyi reytinq göstəriciləri ilə müqayisə oluna biləcək səviyyədə reytinq dərəcələrini müəyyən etməyə imkan yaradan daxili modelləri işləyib hazırlamışdır.

pdfelement

Təşkilat kredit götürən müştərilərin qiymətləndirilməsi məqsədilə borcalanlar üzrə skorinq qiymətləndirmə modelini hazırlamışdır. Skorinq modeli kredit məhsulları ilə bağlı yaradılmışdır və borcalanların əsas fəaliyyət göstəricilərini əhatə edir: maliyyə vəziyyəti, borcalanla münasibətlər, idarəetmə keyfiyyəti, təyinatı üzrə istifadə, yerləşmə, kredit tarixçəsi, girov və s.

Borcalanın parametrləri əsasında skorinq qiymətləndirmə kreditlərlə bağlı qərarvermə prosesi üçün əsas amillərdəndir.

Borcalanların qiymətləndirilməsi metodologiyası aşağıdakı meyarlara əsaslanır: təhsil, məşğuliyyəti, maliyyə vəziyyəti, kredit tarixçəsi, borcalanın sahib olduğu mülkiyyət. Əldə olunmuş məlumat əsasında kreditin ən yüksək həddi hesablanır. Kreditin ən yüksək həddi alınmış borcun borcalana yaratdığı yük əmsalı ilə hesablanır.

Müştərilərə verilmiş kreditlərdən başqa maliyyə aktivləri Fitch, Standard & Poor’s və Moody’s kimi beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş cari kredit reytinqləri əsasında dərəcələrə bölünür. AAA ən yüksək mümkün reytinq dərəcəsi hesab edilir. İnvestisiya dərəcəli maliyyə aktivlərinin reytinqi BB-dan BBB-ya kimi dəyişir. Reytinqi BBB-dan aşağı olan maliyyə aktivləri spekulyativ dərəcəli aktiv kimi təsnifləşdirilir.

**Əməliyyat riski.** Əməliyyat riski sistemdəki nasazlıq, əməliyyatçının səhvi, saxtakarlıq və digər xarici hadisələr nəticəsində zərərin yaranması riskidir. Nəzarətlər yerinə yetirilmədikdə, əməliyyat riskləri müəssisənin nüfuzuna xələl gətirə, hüquqi və ya inzibati nəticələrinə səbəb ola və ya maliyyə itkilərinə gətirib çıxara bilər. Təşkilat bütün əməliyyat risklərinin aradan qaldırılmasını gözləmir, lakin özünün nəzarət konsepsiyası ilə, habelə potensial risklərə nəzarət və onlara qarşı cavab tədbirləri görməklə bu riskləri idarə etməyə çalışır.

Remove Watermark Now



## 22. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

1 fevral 2019-cu il tarixində Azərbaycan Republikasının Mərkəzi Bankı, milli valyutaya olan inamın artırılması fonunda, maliyyələşdirmə dərəcəsini 9.75%-dən 9.25%-ə, faiz dəhlizinin maksimal həddini 11.75%-dən 11.25%-ə və minimal həddini 7.75%-dən 7.25%-ə endirməyi qərara almışdır.

8 fevral 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman ("Fərman") imzalamışdır. Fərmana əsasən 2015-ci il ərzində milli valyutanın devalvasiyası nəticəsində, xarici valyutada 10,000 ABŞ dollarınadək verilmiş kreditlər üzrə yaranmış itkilər hökumət tərəfindən müvafiq bankların müştərilərinə kompensasiya ediləcəkdir.

Bundan əlavə, Fərmanın müddəalarına uyğun olaraq, fiziki şəxslərə verilmiş və Fərmanın verildiyi tarixdə 360 gündən daha çox gecikməsi olan, 1 yanvar 2012-ci il tarixindən Fərmanın verilməsi tarixinədək müddətdə təsdiqlənmiş və qalıq məbləği 10,000 dollar və ya 17,000 AZN təşkil edən kreditlərin restrukturizasiya olunması məqsədilə dövlət zəmanəti olmaqla, ARMB banklara 5 illik müddətə illik 0.1% faiz dərəcəsi ilə ümumi olaraq 682 milyon AZN məbləğində kredit vəsaitləri təmin edəcək.

Fərmanın icrası nəticəsində bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə, ARMB banklara tələb etdikləri təqdirdə, ümumi olaraq 215 milyon ABŞ dolları məbləğində qiymətli kağızları illik 0.5% faiz dərəcəsi ilə təqdim edəcək.

Təşkilat verilmiş bu Fərmanın nəticəsində qeyri-işlək kredit portfelində yaxşılaşmanın yaranacağı qənaətindədir. Yaxşılaşmanın məbləğinin təxminən 11,872 min AZN ətrafında olacağı müəyyən edilmişdir.

pdfelement